İslam beş təməl üzərində qurulub

Əbu Abdurrahman Abdullah bin Ömər bin Xattab (Allah ondan razı olsun) demişdir: Mən Allah Rəsulunun (səlləllahu aleyhi va səlləm) belə dediyini eşitdim: "İslam beş təməl üzərində qurulub: Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına, Muhəmmədin Onun qulu və rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Allahın evini həcc etmək və Ramazan orucunu tutmaq".

[Səhih] [رواه البخاري ومسلم]

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) beş sütun üzərində qurulan İslamı inşa olunmuş möhkəm bir binaya bənzədib, İslamın digər xüsusiyyətləri isə bu binanın tamamlanması kimidir. Bu sütunlardan birincisi: iki şəhadət - Allahdan başqa ibadətə layiq məbud olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirməkdir ki - bu da bir sütundur, biri digərindən ayrılmazdır. İnsan, Allahın təkliyini, yalnız Onun ibadətə layiq olduğunu etiraf edib, şəhadətin tələblərinə uyğun əməl edib və Muhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) şəriətinə iman gətirib və ona tabe olaraq bu şəhadəti tələffüz edir. İkinci sütun: gün ərzində vacib olan beş namazı- sübh, zöhr, əsr, məğrib, işa namazlarını şərtlərinə, ərkanlarına və vaciblərinə uyğun qılmaq. Üçüncü sütun: vacib zəkatın ödənilməsi - bu, vacib ibadət olaraq şəriətlə tənzimlənir, sərvətin miqdarı müəyyən həddə çatdıqda təyin edilmiş hissəsi ehtiyaclılara verilir. Dördüncü sütun: həcc - tələb olunan əməlləri yerinə yetirmək məqsədi ilə Məkkəyə yollanmaq və bununla da uca Allaha ibadət etmək. Beşinci sütun: Ramazan orucu, Allaha ibadət niyyəti ilə səhər dan yeri ağarandan-gün batana qədər yemək, içmək və orucu pozan başqa şeylərdən çəkinməkdir.

https://sunnah.global/hadeeth/az/show/66512